# Qaliblər danışır

## Onlar parlament seçkilərinin şəffaf, demokratik keçirildiyini deyirlər

**Fevralın 9-da Milli Məclisə növbədənkənar seçkilər keçirildi. Bu seçkilərdə hakim Yeni Azərbaycan Partiyası ilə yanaşı, digər siyasi partiyaların nümayəndələri, o cümlədən bitərəf namizədlər iştirak etdi. Namizədlərin iştirak sayına görə, budəfəki seçkilərdə hətta rekord göstərici qeydə alındı. Mərkəzi Seçki Komissiyasının ilkin, eləcə də exit-poll həyata keçirən təşkilatların açıqladığı rəqəmlərə görə artıq 125 dairə üzrə qaliblərin adları bəllidir. ”Kaspi” qəzeti olaraq, qələbə əldə edən bir sıra namizədlərin seçkilərin nəticələri ilə bağlı fikrini öyrəndik.**

**87 saylı Ağsu-İsmayıllı Seçki Dairəsindən seçkilərə qatılan Vəhdət Partiyasının sədri Tahir Kərimli** bildirdi ki, parlament seçkiləri demokratik şəraitdə keçdi: ”Bizim dairə üzrə 16 nami-



zəd var idi və hər biri layiqli mübarizə aparırdı. Hamıya eyni şərait yaradılmışdı. Misal üçün, rayon mədəniyyət evində hər kəs görüşlər keçirə bilərdi. Bir məlumat daxil olmadı ki, kiməsə, haradasa maneə yaradılıb. Hər bir namizəd özünün seçki təşviqatını apardı. Mən də 40-dan çox görüş keçirdim, o cümlədən rayon mədəniyyət evində 3 böyük görüş oldu. Hər yerdə xalqın sevgisi ilə rastlaşdım. Onların yeganə iradı o oldu ki, deputat kimi, çox az-az deputatlar gəlib görüşürəm. Mən də izah etdim ki, artıq cənab Prezidentin də tələbidir ki, əhali ilə tez-tez görüşülsün. Deyərdim ki, kim deputat seçilərsə, bu tələb daha yaxşı yerinə yetiriləcək. Biz görüşlərdə parlamentdəki çıxışlarımızdan video roliklər nümayiş etdirirdik. Bununla deyə bildik ki, həm respublika, həm də dairə üçün müəyyən işlər görmüşük və bununla bağlı problemlər yoxdur”.

T.Kərimli qeyd etdi ki, seçki günü hər bir namizədin müşahidəçisi məntəqələrdə fəaliyyət göstərib: ”Misal üçün, Müstəqil Jurnalistlər İttifaqının üzvü Raqif Nazimoğlu Ağsu şəhərində və İsmayıllının kəndlərində olduğunu vurğulayıb və heç bir məntəqədə seçkinin sonuna doğru narazılığın olmasını eşitmədiyinin deyib. Onu da qeyd edim Raqif özü də namizəd idi. Eyni zamanda, paytaxtdan gələn ATƏT-in müşahidəçiləri və MSK nümayəndələri də seçki prosesini izlədilər. Güman edirəm ki, obyektiv nəticə qeydə alındı, mən 52,5 faiz səslə qalib gəldim. Yeni Azərbaycan Partiyasının namizədi 2-ci, digərləri isə başqa yerlərdə qərarlaşdılar. Cənab Prezidentin islahatlar proqramına uyğun olaraq seçkilər keçirildi. Onu da qeyd edim ki, rayonumuza yeni icra başçısı təyin edilib və o da namizədlərə eyni şəraitin yaradılması üçün əlindən gələni etdi. Baxmayaraq ki, seçki günü güclü qar yağdı, xüsusilə dağ kəndlərində çətinliklər yarandı, amma yenə də seçki müvəffəqiyyətlə başa çatdı”.

**101 saylı Göygöl-Daşkəsən Seçki Dairəsindən ilk dəfə seçkilərə qatılan politoloq Elşad Mirbəşiroğlu** ona etimad göstərən YAP rəhbərliyinə öz minnətdarlığını ifadə etdi. Onun sözlərinə görə, məhz partiyanın göstərdiyi etimad sayəsində namizədliyi irəli sürülüb:



”Azərbaycanda keçirilən bu seçkilər dünyaya örnək olacaq bir səviyyədə, demokratik, şəffaf atmosferdə keçirildi. Kifayət qədər sərbəst şəkildə, belə deyək, doğru bildiyimiz formada seçki kampaniyası reallaşdırdıq. Düşünürəm ki, bu, uğurlu seçki kampaniyası idi. Seçkilərin nəticəsi onu qeyd etməyə əsas verir ki, cəmiyyətdə Yeni Azərbaycan Partiyasının nüfuzu böyükdür. Cənab Prezident İlham Əliyevin siyasətinə xalqın böyük dəstəyi var. Elə biz də həmişə vurğulayırdıq ki, Yeni Azərbaycan Partiyasının namizədlərinə ən güclü dəstək ölkə Prezidentinin siyasətinin uğurudur, Azərbaycanın inkişaf göstəriciləridir”.

E.Mirbəşiroğlunun sözlərinə görə, təbii ki, bu amallara söykənərək seçkilərə qatılıb: ”Seçicilərimə etimad göstərdiklərinə görə təşəkkür edirəm. Əlbəttə ki, biz çalışmalıyıq bu etimadı doğruldaq. Üzərimizə düşən məsuliyyəti dərk edək və seçicilərimiz qarşısında səmərəli fəaliyyət göstərək”.

**61 saylı Neftçala Seçki Dairəsindən seçkilərə qatılan Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı** bildirdi ki, Azərbaycanda ən demokratik və gərgin seçki onun dairəsində keçirilib: ”Çünki 14 nəfər alternativ var idi və onlar biri-birini kəskin şə-



kildə inkar edirdilər. Eyni zamanda, bu adamların hər birinin orada öz yaxınları, qohumları var idi. Həmin namizədlərin öz bölgəsi var idi ki, həmin bölgələr də onları ciddi şəkildə müdafiə edirdi. Amma bütün bunlara baxmayaraq, camaatın ümumi rəyi, sevgisi mənim tərəfimdə idi və mən də qalib gəldim. Düzdür, seçkilərdən əvvəl bir böyük binada yanğın oldu, seçki günü qar yağdı. Həmin yanan binada yaşayanlar seçkini unutdular və əlbəttə ki, onların faciəsinin qarşısında seçki çox ucuz bir şeydir”.

S.Rüstəmxanlı vurğuladı ki, onun mübarizə apardığı dairədə seçki günü beynəlxalq müşahidəçilər də baş çəkiblər: ”Xeyli məntəqədə də protokollarını çıxartdılar və onların da rəyi belə idi ki, rayon üzrə birinci yerdə Sabir Rüstəmxanlı oldu”.

**38 saylı Nizami İkinci (Gəncə) Seçki Dairəsindən ikinci dəfə seçkilərə qatılan və seçkilərin qalibi olan Naqif Həmzəyev** bildirdi ki, Yeni Azərbaycan Partiyası Milli Məclisə növbədənkənar



seçkilərdə uğur qazandı: ”Bu uğurun təməlində Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyevin xalq arasındakı yüksək şəxsi nüfuzu, həyata keçirdiyi siyasətin möhtəşəm nəticələri dayanır. Azərbaycan xalqı öz seçimi ilə, Yeni Azərbaycan Partiyasının namizədlərinə etimad göstərməklə dövlətçiliyə olan dəstəyini bir daha göstərdi. Mən hər zaman özümü Prezidentin əsgəri saymışam. Seçicilərimin Yeni Azərbaycan Partiyasının irəli sürdüyü namizəd olaraq VI çağırış Milli Məclisin deputatı kimi yenidən mənə etimad göstərmələri mənim üçün böyük şərəfdir. Hər bir seçicimə dərin minnətdarlığımı bildirirəm və əmin edirəm ki, onların etimadını ən yüksək səviyyədə doğrultmağa çalışacaq, Vətənimizin, dövlətimizin yüksəlişi, tərəqqisi yolunda daha çox fəaliyyət göstərəcəm, hər bir gəncəlinin deputatı olacam”.

**31 saylı Suraxanı İkinci Seçki Dairəsindən 41.4 % səslə rəqiblərini üstələyən Etibar Əliyev** modern.az saytına bildirib ki, imzatoplama və seçki təşvi-



qatı dövründə seçicilərin böyük dəstəyini qazanıb: ”Seçkiyə qədər, seçki də daxil olmaqla, seçicilərimdən çox razıyam. Görüşünə getdiyim vətəndaşların heç biri ünsiyyətdən qaçmadılar, namizəd kimi məni dinlədilər. Səsvermədə də hava şəraitinin soyuq olmasına baxmayaraq, xeyli aktivlik nümayiş etdirdilər. Ona görə də bu cür seçicilərin mütləq şəkildə qayğısına qalmaq, onların səsi olmaq lazımdır”.

E.Əliyev qeyd edib ki, daim seçicilərilə təmasda olacaq: ”Mütəmadi görüşlər keçirəcəyəm, görüş vaxtları müəyyənləşdirəcəyəm. Seçicilərin problemlərinin həllinə çalışacağam. Deputat seçilmək istəyən şəxs ictimai mənafeyi şəxsi mənafedən üstün tutmağı bacarmalıdır. Çünki onminlərlə insanı təmsil edir. Buna görə də şəxsi mənafeyini ictimai mənafedən sonraya saxlamalıdır. Mənim keçdiyim həyat yolu onların problemlərini parlamentdən səsləndirməyə imkan verəcək. Mən aliməm, təhsil sahəsində çalışmışam, Milli Elmlər Akademiyasının işçisiyəm. Düşünürəm ki, seçicilərlə səmimi, hərtərəfli əlaqələrimiz olacaq. Qarşıya çıxan problemləri birgə həll etməyə çalışacağıq”.

**BƏXTİYAR**

Kaspi.-2020.-11 fevral.-S.5.